# Avropanın Orta dəhlizə ehtiyacı daha da artır

**Dünyada gedən siyasi qarşıdurmalar, toqquşmalar fonunda Orta dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) əhəmiyyəti daha da artmaqdadır. Bu marşrut vasitəsilə yüklərin daşınması daha təhlükəsiz olmaqla yanaşı, həm də mənzil başına tez çatdırılması xərclərini xeyli azaldır. Orta dəhliz vasitəsilə yüklər Çin, Qazaxıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə Avropaya çatdırılır. Rusiya-Ukrayna müharibəsi səbəbi ilə Avropa İttifaqının da bu dəhlizə marağının artdığı açıq-aydın görünür.**

Milli Məclisin deputatı Vüqar Bayramov da qəzetimizə açıqlamasında bildirib ki, son illər Orta dəhlizin əhəmiyyətinin daha da artması müşahidə olunur: "Bir tərəfdən İrana qarşı sanksiyalar artır, digər tərəfdən isə İsrail-İran qarşıdurması Cənub üzərindən yüklərin daşınmasında çətinlik yaradıb. Həm də Rusiyaya qarşı sanksiyalar tətbiq olunduğundan Avropa İttifaqının Orta dəhlizə marağı artıb. Bu dəhliz vasitəsilə daha çox yüklərin daşınması müşahidə edilir. Beləliklə, Orta dəhliz, yəni, Azərbaycan və Gürcüstan üzərindən, eləcə də qardaş Türkiyə vasitəsilə yüklərin Şərqdən Qərbə, yəni Asiyadan Avropaya daşınması artır".



Deputat qeyd edib ki, Azərbaycanın Çin Xalq Respublikası ilə strateji tərəfdaşlığı, həmçinin Orta dəhliz üzərində yerləşən bir sıra Avropa ölkələrinin bu istiqamətdə əməkdaşlığı və strateji münasibətləri bu marşrut vasitəsilə ölkəmiz üzərindən daha çox yüklərin daşınmasına zəmin yaradır.

V.Bayramovun sözlərinə görə, Azərbaycan Orta dəhlizin genişlənməsinə töhfə verən ölkələrdəndir. Həm infrastrukturun genişləndirilməsi, həm Ələt limanının istifadəyə verilməsi, həm də elektron xidmətlərdən geniş istifadə edilməsi Azərbaycan üzərindən yüklərin daşınmasına marağın artmasına səbəb olub. "Həmçinin Zəngəzur dəhlizinin istifadəyə verilməsi ilə bağlı aparılan müzakirələr və bu istiqamətdə gözləntilər də Orta dəhlizin regionda əhəmiyyətini artıracaq. Çünki Zəngəzur dəhlizi Orta dəhlizə inteqrasiya olunacaq və bu da Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu vasitəsilə daha çox yükün Azərbaycan vasitəsilə daşınmasına imkan yaradacaq", - deyə V.Bayramov əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 22 iyun (№ 127).- S.8.